RESPUBLİKA 5 mart 2020-ci il s.7.

*5 Mart Bədən Tərbiyəsi və İdman Günüdür*

# İdmanın kütləviliyi təmin edilir



**Bu gün Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Bizim idman nəticələrimiz, uğurlarımız, qələbələrimiz, eyni zamanda idmana dövlət tərəfindən göstərilən qayğı, Dövlət proqramlarının icrası, beynəlxalq idman qurumları tərəfindən də yüksək qiymətləndirilir. Təsadüfi deyil ki, Beynəlxalq Olimpiya Komitəsi, Avropa Olimpiya Komitəsi, beynəlxalq idman federasiyaları Azərbaycanda idmanın inkişafına çox yüksək qiymət verirlər. 1994-cü ildə Bakı İdman Oyunları stadionunda idmançılarla görüşündə ümummilli liderimiz Heydər Əliyev bu sözləri demişdir: "Bundan sonra idmana qayğını öz üzərimə götürürəm və siz əmin ola bilərsiniz ki, siz bu qayğını həmişə hiss edəcəksiniz".**

Vurğulamaq lazımdır ki, ölkəmizdə idmanın kütləviliyi təmin edilir, idmanla məşğul olmaq istəyən gənclərin sayı ildən-ilə artır, biz bunu görürük, izləyirik. Buna görə biz ilk növbədə dövlətə və Prezidentimizə öz minnətdarlığımızı bildiririk. Azərbaycan gənclərinin idmana böyük maraq göstərməsi bizi sevindirir. Görkəmli idmançılarımızın uğurları bizim idman şöhrətimizi daha da yüksəklərə qaldırır. Bu baxımdan 2019-cu il də idmançılarımız üçün əlamətdar olmuşdur. Azərbaycan idmançıları müxtəlif idman yarışlarında 775 medal qazanmışlar, onlardan 271-i qızıl medaldır. Bu onu deməyə əsas verir ki, idmançılarımız ölkəmizi beynəlxalq yarışlarda ləyaqətlə təmsil ediblər və Azərbaycanın dövlət himnini 271 dəfə səsləndiriblər, bayrağımızı yüksəklərə qaldırıblar.

İdman sahəsində parlaq nəticələr qazanılmasında şahmatçıların uğurlarını xüsusilə qeyd etmək lazımdır. Bu, onu göstərir ki, gənclərimiz nəinki fiziki cəhətdən güclüdür, eyni zamanda, onların intellektual potensialı da çox yüksəkdir. Görkəmli şahmatçımız Teymur Rəcəbov Dünya Kubokunun qalibi olmuşdur. Bu, tarixi hadisədir. Bu onu göstərir ki, şahmata göstərilən diqqət öz nəticəsini verməkdədir.

Ulu öndər, dahi şəxsiyyət Heydər Əliyev hakimiyyətə qayıdışından sonra şahmat məktəblərinin yenidən bərpası və açılması prosesi başlanmış və son illərdə geniş vüsət almışdır.

Şahmat çox populyar idman növüdür və uşaqların intellektual potensialını gücləndirir. Mənəvi dəyərlərimizə bağlı və böyük intellektual potensiala malik olan gənclər müstəqil Azərbaycanın uğurlu gələcəyini təmin edəcəklər.

Hər bir idman qələbəsi, xüsusilə mötəbər beynəlxalq yarışlarda qazanılmış qələbə xalqımızın milli qürurunu və milli ruhunu yüksəldir.

Cənab İlham Əliyev Azərbaycan Milli Olimpiya Komitəsinin Prezidenti kimi 1997-ci ildə bu vəzifəyə seçildikdən sonra Azərbaycanda idmanın inkişafı, idmanda kütləviliyin təmin edilməsi istiqamətində mühüm addımlar atılıb.

Aparıcı beynəlxalq idman qurumları Azərbaycanı idman ölkəsi kimi tanıyır. İdman sahəsində ən böyük nailiyyətimiz keçən Yay Olimpiya Oyunlarında qazanılmış qələbələrdir. Medalların sayına görə Azərbaycan dünya miqyasında 214 ölkə arasında 14-cü yerə layiq görülmüşdür. Bu, tarixi qələbədir və böyük uğurdur. 2015-ci ildə isə Bakıda keçirilmiş ilk Avropa Oyunlarında Azərbaycan komanda hesabında ikinci yerə çıxmışdır.

Hazırda ölkəmizin bölgələrində 45 Olimpiya İdman Mərkəzi var. Bu mərkəzlərdə idman sahəsində parlaq qələbələrə nail olunmasına maksimum səy göstərilir.

Bu baxımdan 2019-cu il əlamətdar il olmuşdur. Bir neçə dünya, Avropa çempionatları, gimnastika və digər idman növləri üzrə, o cümlədən Avropa yeniyetmələrinin Olimpiya Festivalı keçirilmişdir. Bu festivala Avropanın bütün ölkələrindən yeniyetmələr gəlmişlər. İdmançılarımız yaxşı nəticə göstərmişlər, komanda hesabında 4-cü yerə layiq görülmüşlər. Ötən il Bakıda daha bir əlamətdar idman yarışı keçirilib. Futbol üzrə Avropa Liqasının final oyunu ilk dəfə olaraq Azərbaycanda, Bakı Olimpiya Stadionunda keçirilmişdir. Təşkilat Komitəsi çox səmərəli işləyibdir. Ümumi rəyə əsasən, təşkilati məsələlərə görə Bakı, Avroliqada final yarışı nümunə kimi göstərilir.

2020-ci ildə ölkəmizdə yenə də mötəbər idman yarışlarının keçirilməsi nəzərdə tutulmuşdur. Onların arasında bir nömrəli yarış futbol üzrə Avropa çempionatının dörd oyunudur. Artıq tarixlər də bəllidir. Hazırlıq işləri aparılır, xaricdən gələn çox böyük tamaşaçı auditoriyası olacaqdır.

2020-ci ildə ölkəmizdə ənənəvi olaraq "Formula-1" yarışı da keçiriləcəkdir. Futbol üzrə Avropa çempionatının oyunları ilə "Formula-1" yarışı üst-üstə düşür.

Azərbaycan idmanı tərəqqi yolundadır. Əminliklə demək olar ki, ölkəmizi təmsil edən idmançılar qarşıdakı yarışlarda daha böyük uğurlara imza atacaqlar.

**Ağacan ABİYEV,**
**Əməkdar elm xadimi,**
**professor.**